İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

İyul 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# GÜZƏŞTLİ VERGİ TUTULAN ÖLKƏLƏRİN VƏ ƏRAZİLƏRİN SİYAHISI




"Güzəştli vergi tutulan ölkələrin və ərazilərin siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən müvafiq Fərman imzalanmışdır.

Fərmana əsasən, "Güzəştli vergi tutulan ölkələrin və ərazilərin siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanununun tətbiqini təmin etmək məqsədi ilə dövlət başçısı tərəfindən bir neçə istiqamətdə tapşırıqlar verilmişdir.

Belə ki, qarşıya qoyulan tapşırıqlar arasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi, və bundan əlavə, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verməsi öz əksini tapmışdır. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasının nəzarətdə saxlanılması və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi və bu Fərmandan irəli gələn digər məsələlərin həll edilməsi qarşıya qoyulan tapşırıqlar arasında yer almaqdadır.

Bununla yanaşı, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməsi digər tapşırıqlar arasinda yer almaqdadır.

Fərmana əsasən, güzəştli vergi tutulan ölkələrin və ərazilərin siyahısı aşağıdakı şəkildə təsdiq edilmişdir:

1. Andorra
2. Anqila
3. Antiqua və Barbuda
4. Aruba
5. Antil Adaları (Niderland)
6. Baham Adaları
7. Bəhreyn
8. Bermud Adaları
9. Britaniya Vircin Adaları
10. Beliz
11. Barbados
12. Cəbəllütariq
13. Cersi
14. Dominika
15. Honkonq (Çin)
16. Kayman Adaları
17. Kuk Adaları
18. Kosta-Rika
19. Qernsi
20. Qrenada
21. Liberiya
22. Lixtenşteyn
23. Maldiv Adaları
24. Men Adaları
25. Marşal Adaları
26. Montserrat
27. Monako
28. Makao (Çin)
29. Nauru
30. Niue
31. Panama
32. Palau
33. Seyşel Adaları
34. Sent Kits və Nevis
35. Samoa
36. Sent Vinsent və Qrenadin
37. Sent Lusiya
38. Törks və Kaykos Adaları
39. Vanuatu
40. Vircin Adaları (ABŞ)

www.iqtisadiislahat.org

www.ereforms.org

www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat